Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rusiyada Ukraynaya pul göndərən jurnalistə 12 il həbs cəzası verilib

20 dəqiqə öncə




Darya Şipaçyova

Moskva şəhər Məhkəməsi jurnalist **Darya Şipaçyova**nı dövlətə xəyanət işi üzrə 12 il azadlıqdan məhrum edib. Məlumatı "Mediazona" yayıb.

"T-invariant" nəşrinin mənbələrinə görə, cinayət təqibinə Şipaçyovanın doğulduğu və çoxsaylı qohumlarının yaşadığı Ukraynaya pul köçürməsi səbəb olub. Jurnalistin tanışları onun pulu mülki şəxsə göndərdiyini bildiriblər.

Şipaçyova 2025-ci il aprelin 23-də Moskvadakı mənzilində saxlanılıb. "Mediazona" jurnalistin dostlarına istinadla yazır ki, gecə saatlarında onun evinə OMON əməkdaşları basqın edib, bundan sonra isə jurnalistlə əlaqə kəsilib. O, əvvəlcə Rostovdakı istintaq

təcridxanasına, daha sonra isə Moskvadakı "Lefortovo" istintaq təcridxanasına köçürülüb.

Şipaçyovanın rəfiqələri "Nastoyaşşeye Vremya" və "T-invariant"a bildiriblər ki, saxlanmazdan az əvvəl jurnalist hədələnib. Bunu Rusiyada qadağan olunmuş "Mujskoye Qosudarstvo" (Kişi Dövləti) qruplaşmasının tərəfdarlarının etdiyi ehtimal olunur. O, həmçinin feminist fikirlərinə görə sosial şəbəkələrdə təqiblərə məruz qalıb.

İttiham irəli sürüldükdən sonra Şipaçyova istintaqla əməkdaşlığa razılaşıb. Məhkəmə işi cəmi saat yarıma araşdırıb.

35 yaşlı Şipaçyova elmi, tibbi jurnalistika və sosial problemlər üzrə ixtisaslaşıb.

"Vyorstka" nəşri yazır ki, Rusiyanın Ukraynaya qarşı müharibəsi başlayandan dövlətə xəyanət, casusluq və xarici dövlətlə əməkdaşlıq ittihamları üzrə azı 1904 nəfərə cinayət işi açılıb.

2026-cı ilin ilk altı ayında Rusiyada bu maddələr üzrə 312 nəfər məhkum edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 43 nəfər çoxdur. Nəşrin hesablamalarına görə, bu, indiyədək rekord göstəricidir. İttiham olunanların cəmi 4 faizi dövlət sirrinə çıxış imkanına malik olub, təxminən üçdə biri isə təsadüfi şəxslər olub.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur